

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 33 (20.934)

*20 fevral 2014-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Rusiya Federasiyası İnquşetiya Respublikasının keçmiş Prezidenti Ruslan Auşevi qəbul etmişdir.

İnquşetiyanın keçmiş Prezidenti Ruslan Auşevin ölkəmizin və xalqımızın böyük dostu olduğunu vurğulayan dövlətimizin başçısı onun regionda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsində fəal iştirak etdiyini, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası, o cümlədən Şimali Qafqaz respublikaları arasında ənənəvi dostluq münasibətlərinin inkişaf etdirilməsində böyük rol oynadığını yüksək dəyərləndirdi. Prezident İlham Əliyev Azərbaycan Respublikası və Rusiya Federasiyası xalqları arasında əlaqələrin möhkəmləndirilməsi, regionda sülhün və əmin-amanlığın bərqərar olması sahəsində xidmətlərinə görə Ruslan Auşevin Azərbaycanın yüksək dövlət mükafatlarından olan "Dostluq" ordeni ilə təltif olunduğunu dedi və ordeni ona təqdim etdi.

Rusiya Federasiyası İnquşetiya Respublikasının keçmiş Prezidenti Ruslan Auşev ona Bakıda Prezident İlham Əliyev tərəfindən Azərbaycanın yüksək dövlət mükafatlarından olan "Dostluq" ordeninin təqdim olunmasından böyük qürur hissi keçirdiyini dedi. O, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini böyük ehtiramla yad etdi.

Ruslan Auşev ötən dövr ərzində Azərbaycanda gedən sürətli inkişaf proseslərinin də onda dərin təəssürat yaratdığını dedi.

## "Ağa Məhəmməd şah Qacar" tarixi dram əsəri Naxçıvan teatrında səhnəyə qoyulmuşdur

Fevralın 18-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında yazıçı-dramaturq Əli Əmirlinin "Ağa Məhəmməd şah Qacar" tarixi dram əsəri səhnəyə qoyulmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Ağa Məhəmməd şah Qacar" tamaşasına baxmışdır.

Tamaşadan əvvəl Azərbaycan Respublikasının xalq artisti Rza Xudiyev çıxış edərək demişdir ki, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti, yazıçı-dramaturq Əli Əmirli 1971-ci ildən ədəbi yaradıcılıqla məşğuldur. "İldırımötürən", "Axirətdən qabaq gəzinti", "Haram", "Meydan", "Ərizə", "Ölü doğan şəhər" kimi roman və povestlərin, iyirmidən çox hekayənin müəllifi olan Əli Əmirli 1990-cı ildən başlayaraq daha çox teatr dramaturgiyası sahəsində çalışır. Onun "Messenat", "Ərizə", "Yeddi məhbusə", "Cəza", "Köhnə ev", "Ağqoyunlular və Qaraqoyunlular", "İyirmi ildən sonra", "Onun iki qabırğası", "Varlı qadın", "Xoşbəxt gün" və başqa pyesləri Azərbaycan, eləcə də digər ölkələrin teatrlarında tamaşaya qoyulmuş, xarici dillərə tərcümə olunmuşdur.

Qeyd olunmuşdur ki, Əli Əmirlinin 2005-ci ildə qələmə aldığı ikihissəli "Ağa Məhəmməd şah Qacar" əsəri tarixi dram janrında yazılmışdır. Müəllif əsərdə daha çox görkəmli sərkərdə və dövlət başçısı Ağa Məhəmməd şah Qacarın daxili aləmini açıb göstərməyə çalışmışdır. Ağa Məhəmməd şah Qacarın dövrünə və fəaliyyətinə həsr olunmuş bu tarixi əsər ilk dəfədir ki, Naxçıvan Dövlət Musiqili Dram Teatrında səhnəyə qoyulur.





İkihissəli əsər gərgin dramatik səhnələr üzərində qurulmuşdur. Yazıçı təxəyyülünün süzgəcindən keçən Qacar obrazı bacarıqlı sərkərdə və dövlət başçısı kimi daha çox diqqəti cəlb edir. Tamaşada Qacar həm də tarixilikdən çıxaraq öz taleyinin girdabında əzab çəkən, bitib-tükənmək bilməyən suallara cavab axtaran bir insan obraz kimi təsvir olunmuşdur. Azərbaycan ədəbiyyatı üçün səciyyəvi olan ədalətsevərlik motivi tamaşanın əsas süjet xəttini təşkil edir. Qacar obrazı tamaşaçıya yalnız qəddar və zalım hökmdar deyil, həm də bütün fəaliyyətini xalqının xoşbəxt gələcəyinə həsr edən siyasi xadim kimi təqdim olunur.

Səhnə əsərində Ceyran xanım, Cəfərqulu xan, Kərim xan Zənd, Şeyx Cəfər Tonkabuni, Axund Hacı Babək və digər obrazların psixoloji cizgiləri və xarakterlərinin müxtəlif səciyyəvi cəhətləri parlaq boyalarla əks olunmuşdur. Xüsusilə Ceyran xanım obrazı ağıllı, namuslu, tədbirli, eyni zamanda bütün türk xatınları kimi cəngavər ruhlu bir qadın kimi göstərilmişdir.

Tamaşanın quruluşçu rejissoru Azərbaycan Respublikasının xalq artisti Kamran Quliyev, quruluşçu rəssamı Xalq rəssamı Hüseynqulu Əliyev, musiqi tərtibatçısı isə Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədovdur. Azərbaycan Respublikasının xalq artistləri Yasəmən Ramazanovanın və Rza Xudiyevin, Azərbaycan Respublikasının əməkdar artistləri Əli Əliyev, Əbülfəz İmanov, Bəhruz Haqverdiyev və Xəlil Hüseynovun, Naxçıvan Muxtar Respublikasının əməkdar artisti Səməd Canbaxşıyevin yaratdıqları obrazlar tamaşaçı alqışı ilə qarşılanmışdır.

Tamaşadan sonra səhnə arxasına keçən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Ağa Məhəmməd şah Qacar" əsərini Naxçıvan teatrında səhnəyə qoyulan uğurlu tarixi dramlardan biri kimi dəyərləndirmiş, bu münasibətlə müəllifi və kollektivi təbrik edərək demişdir: "Ağa Məhəmməd şah Qacar" tamaşası qədim tarixə malik olan Naxçıvan teatrının repertuarında yeni bir səhifə açdı. Əsər yazılarkən müəllif ətraflı araşdırmalar aparmış və tarixin qaranlıq məqamlarına nəzər salaraq yaddaqalan obrazlar yaratmışdır. Rejissor işi və düzgün aktyor seçimi isə əsərin uğurlu səhnə həllinə səbəb olmuşdur".

Ali Məclisin Sədri uğurlu ifalara görə aktyorlara təşəkkürünü bildirmiş, onlara yeni yaradıcılıq uğurları arzulamışdır.

Yazıçı-dramaturq Əli Əmirli göstərilən qayğıya və verilən yüksək qiymətə görə minnətdarlığını bildirmişdir.

Sonda xatirə şəkli çəkdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Babək rayonunun kəndlərində kompleks quruculuq işləri aparılır

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Bu gün Azərbaycan gələcəyə çox böyük ümidlərlə, nikbinliklə baxır. Bunun əsas səbəbi iqtisadi müstəqillikdir, iqtisadi gücümüzdür və siyasi iradədir".***

Ölkəmizdə əhalinin rifahının yaxşılaşdırılmasına, yeni infrastruktur sahələrinin yaradılmasına və sosial sahənin inkişafına hesablanmış islahatlar Azərbaycan dövlətinin iqtisadi gücünün göstəricisidir. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası isə inkişafı şərtləndirən əsas amillərdəndir. Bu tədbirlərin tərkib hissəsi olaraq muxtar respublikada həyata keçirilən quruculuq işləri Babək rayonunu da əhatə etmiş, kənd yaşayış məntəqələrində yeni sosial obyektlər tikilərək istifadəyə verilmiş, inkişaf davamlı xarakter almışdır.

## Cəhri kənd 1 nömrəli tam orta məktəbin binası istifadəyə verilmişdir

Fevralın 19-da Cəhri kənd 1 nömrəli tam orta məktəbin binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış mərasimində iştirak etmişdir.

Babək Rayon İcra Hakimiyyətinin başçısı Elçin Hüseynəliyev tədbirdə çıxış edərək demişdir ki, muxtar respublikamızın sürətli sosial-iqtisadi inkişafı, aparılan quruculuq işləri Babək rayonunu da əhatə etmişdir. Son illər rayonda yeni məktəb binaları, səhiyyə müəssisələri və inzibati binalar inşa edilmiş, yeni yollar çəkilmiş, bütün sahələrdə irəliləyiş əldə edilmişdir. Rayonda görülən bu işlərdən Cəhri kəndinə də pay düşmüşdür. Artıq müasir kənd yaşayış məntəqəsinə çevrilən Cəhridə insanların problemləri vaxtlı-vaxtında həll olunur, əkinçiliyin və maldarlığın inkişafı üçün sakinlərə güzəştli şərtlərlə kreditlər verilir, fərdi təsərrüfatlar genişləndirilir. Bu da onların torpağa bağlılığını, qurub-yaratmaq əzmini daha da artırır. Elçin Hüseynəliyev yaradılan şəraitə və göstərilən

*Ardı 2-ci səhifədə*



qayğıya görə rayon sakinləri adından minnətdarlığını bildirmişdir.

Məktəbin müəllimi Təranə Seyidova çıxış edərək demişdir ki, müasir məktəb binasının istifadəyə verilməsi müəllim və şagird kollektivinə ən böyük hədiyyədir. Məktəbdə təhsilin səmərəliliyini artırmaq üçün yeni imkanlar yaradılmışdır. Müəllimlər bundan sonra da göstərilən dövlət qayğısına əməli işləri ilə cavab verəcək, yaradılan yüksək təhsil şəraitindən düzgün istifadə edərək vətənpərvər və bilikli gənclər yetişdirəcəklər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Cəhri kənd 1 nömrəli tam orta məktəbin istifadəyə verilməsi münasibətilə sakinləri və kollektivi təbrik edərək demişdir: “Ölkəmizdə təhsilin inkişafı istiqamətində həyata keçirilən tədbirlər dünya təhsil sisteminə inteqrasiyanı təmin etmişdir. Artıq Azərbaycan gəncləri dünyanın inkişaf etmiş ölkələrində ali təhsil alır, müxtəlif peşə sahələrində fəaliyyət göstərirlər. Bütün bunlar ölkəmizdə təhsil sisteminin düzgün qurulmasının, orta təhsil bazasında gənclərin hərtərəfli hazırlanmasının nəticəsində mümkün olmuşdur”.





Ali Məclisin Sədri demişdir: “Ölkəmizdə təhsil quruculuğu sahəsində həyata keçirilən tədbirlər muxtar respublikada da davam etdirilir. Yeni məktəb binaları tikilir, təhsil ocaqları lazımi tədris avadanlıqları və informasiya texnologiyaları ilə təmin edilir, dərslər müasir təhsil metodları əsasında tədris olunur. Cəhri kənd 1 nömrəli tam orta məktəbinə də bu qayğıdan pay düşmüşdür. 828 şagird yerlik məktəbdə elektron lövhəli siniflər, 3 kompüter otağı, kitabxana, idman zalı, hərbi kabinə, laboratoriyalar yaradılmış, gələcək perspektiv nəzərə alınaraq birnövbəli fəaliyyət təmin edilmişdir. Yaradılan şərait dərslərin keyfiyyətlə tədrisinə və daha yaxşı mənimsənilməsinə imkan verəcəkdir”.

Ümummilli liderimiz Heydər Əliyevin “***Gənc nəslin tərbiyəsinə və təhsilinə ciddi fikir versək, onda gələcəyimiz üçün böyük işlər görmüş olarıq”*** fikrini xatırladan Ali Məclisin Sədri demişdir ki, ölkəmizdə təhsil sahəsində həyata keçirilən tədbirlər və mövcud infrastruktur ulu öndərin tövsiyələrinin yerinə yetirilməsinə şərait yaratmışdır. Müəllimlər bilməlidirlər ki, onlar ölkəmizin gələcəyini hazırlayırlar. Ona görə də hər bir gənc təhsilli böyüdülməklə yanaşı, həm də əsl vətəndaş kimi yetişdirilməlidir. Cəhri kənd 1 nömrəli tam orta məktəbində bu iş düzgün qurulmuşdur. Ötən illərdəki nailiyyətlər bu sahədə irəliləyişlərin olduğunu təsdiq edir. 2012-2013-cü dərs ilində məktəbi bitirən məzunlardan 22-si ali məktəblərə, 2-si isə orta ixtisas məktəblərinə qəbul olunmuş, 7 şagird 500-700 intervalında yüksək bal toplamışdır.



Ali Məclisin Sədri qazanılan nailiyyətlərə görə kollektivə təşəkkürünü bildirmiş və onlara tədrisdə uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri Babək rayonunun ümumtəhsil məktəblərində əla qiymətlərlə oxuyan bir qrup şagirdə kompüter dəsti hədiyyə etmişdir.

Açılışı bildirən lent kəsildikdən sonra binaya baxış olmuşdur.

Bildirilmişdir ki, ölkəmizdə, eləcə də muxtar respublikamızda kitabxana işinin təkmilləşdirilməsi sahəsində görülən işlərdən məktəb kitabxanasına da pay düşmüşdür. Kitabxananın fondunda 10 min 866-sı latın qrafikalı dərslik və 7044-ü bədii ədəbiyyat olmaqla, 17 min 910 kitab vardır.

Ali Məclisin Sədri birinci siniflərdə təhsil alan şagirdlərin dərs prosesi ilə maraqlanmışdır. Qeyd olunmuşdur ki, 2013-2014-cü tədris ilində məktəbin birinci sinfinə 60 şagird qəbul olunmuşdur. Məktəbdə 4 birinci sinif yaradılmışdır. Şagirdlər birinci sinfə qəbul olunmazdan əvvəl 1 il müddətində məktəbəhazırlıq kursu keçmişlər.

Kompüter və elektron lövhəli siniflərə baxış zamanı Ali Məclisin Sədrinə məktəbin informasiya texnologiyaları ilə təminatı barədə məlumat verilmişdir.

Bildirilmişdir ki, informasiya texnologiyalarının imkanlarından istifadə müasir təhsil sisteminin qarşısında duran başlıca vəzifələrdəndir. Cəhri kənd 1 nömrəli tam orta məktəbin kompüter otaqlarında 57 kompüter quraşdırılmış və internetə qoşulmuşdur. Məktəbdə 4 elektron lövhəli sinif vardır. İnternetə çıxışı olan və lazımi elektron dərsliklərlə təmin edilən interaktiv lövhələr elektron təhsil mübadiləsinin aparılmasına imkan verir.

Baxış zamanı Cəhri kənd 1 nömrəli tam orta məktəbi ilə Şahbuz rayonunun Kükü kənd tam orta məktəbi arasında elektron lövhə üzərindən videobağlantı qurulmuş və 11-ci sinif şagirdləri arasında “Azərbaycan tarixi” fənni tədris olunmuşdur.

Ali Məclisin Sədri hər iki məktəbin muxtar respublikanın qabaqcıl təhsil ocaqları olduğunu bildirərək demişdir ki, ümumtəhsil məktəblərinin informasiya texnologiyaları ilə təmin edilməsi distant təhsilin inkişafına hərtərəfli şərait yaradır. Məktəblər arasında qurulan bu cür elektron tədris mübadiləsi keçilən dərslərin keyfiyyətinin daha da yüksəldilməsinə səbəb olacaqdır. Ona görə də müəllimlər kompüter və elektron lövhələrdən istifadə imkanlarına dərindən yiyələnməli, tədris zamanı elektron dərsliklərdən geniş istifadə olunmalıdır.

Kimya, biologiya və fizika laboratoriyalarında da lazımi tədris şəraiti vardır. Hərbi kabinəyə baxış zamanı qeyd olunmuşdur ki, şagirdlərdə hərbi-vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi diqqət mərkəzindədir. Bunun nəticəsidir ki, məktəbin məzunları müxtəlif ali hərbi məktəblərdə öz təhsillərini davam etdirirlər.

İdman zalı şagirdlərin fiziki hazırlığının normal təşkilinə imkan verəcəkdir.

Ali Məclisin Sədri məktəbin müəllimləri ilə görüşmüş, təhsilin inkişafı və şagirdlərin hərtərəfli hazırlanması sahəsində tapşırıqlar verərək demişdir: “Cəhri kənd 1 nömrəli tam orta məktəbində müasir təhsilin qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi üçün hərtərəfli imkanlar vardır. Yaradılan şərait pedaqoji kollektiv qarşısında yeni vəzifələr müəyyənləşdirmişdir. Bu vəzifələr bilikli, savadlı və vətənpərvər gənclər yetişdirməkdən ibarətdir. Çünki əsl vətəndaş kimi yetişən hər bir gənc gələcəkdə müstəqil Azərbaycana xidmət edəcəkdir”.

Qeyd olunmuşdur ki, məktəbin müəllimlərinin əməyi dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmiş, müəllimlərdən 1-i “Azərbaycan Respublikasının əməkdar müəllimi”, 1-i isə “Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi” fəxri adına layiq görülmüşdür.

Müəllimlər yaradılan müasir tədris şəraitini təhsilin inkişafı ilə yanaşı, onların əməyinə də verilən ən yüksək qiymət kimi dəyərləndirmiş, kollektiv adından minnətdarlıq etmişlər.

Məktəbin həyətində də abadlıq işləri aparılmış, 1200 metr qapalı drenaj xətti çəkilmişdir.



# Cəhri kəndində yeni xidmət mərkəzi tikilmişdir







Muxtar respublikanın kəndlərində aparılan quruculuq işlərinin səciyyəvi cəhətlərindən biri də yeni xidmət mərkəzlərinin tikilməsidir.

Fevralın 19-da Cəhri kəndində yeni xidmət mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mərkəzlə tanışlıqdan əvvəl sakinlərlə görüşərək demişdir: "Cəhri muxtar respublikanın böyük kənd yaşayış məntəqələrindən biridir. Ötən dövrdə kəndin inkişafına hərtərəfli diqqət göstərilmiş, kənddə içməli və suvarma su təminatı yaxşılaşdırılmış, mənzillər daimi elektrik enerjisi və təbii qazla təmin edilmiş, yeni sosial obyektlər tikilmişdir. Bu gün kənddə müasir tələblərə cavab verən 2 məktəb binası, musiqi məktəbi, xidmət mərkəzi və sahə xəstəxanası fəaliyyət göstərir. Həmçinin kənddə rabitə xidmətinin keyfiyyəti yüksəldilmiş, yeni nəsil texnologiyalara əsaslanan avtomat telefon stansiyaları qurulmuşdur. Yaradılanlar kəndlə şəhər arasındakı fərqin aradan qaldırılmasına, sakinlərin sosial problemlərinin həllinə və yeni iş yerlərinin açılmasına səbəb olmuşdur. Eyni zamanda görülən bu işlər ölkəmizin inkişafının bir kəndin timsalında göstəricisidir".

Ali Məclisin Sədri qurulanlardan səmərəli istifadə olunacağına əminliyini bildirmiş, sakinləri kənddə istifadəyə verilən yeni sosial obyektlər münasibətilə təbrik etmişdir.

Kənd sakinləri Elman Qasımov və Qadir Qədirzadə minnətdarlıq edərək demişlər ki, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xətt ölkəmizin inkişafının əsasını təşkil edir. Kəndlərin abadlaşması da bu inkişafın tərkib hissəsidir. Cəhri kəndində yaradılanlar təkcə kəndin inkişafı deyil, bu həm də ölkəmizin gələcəyinə xidmət edən tədbirlərdir. Ona görə də hər bir sakin tikilənləri qoruyacaq, onlardan səmərəli istifadə edərək muxtar respublikamızın inkişafına öz töhfələrini verəcəkdir.

Açılışı bildirən lent kəsildikdən sonra xidmət mərkəzinə baxış olmuşdur.

Məlumat verilmişdir ki, Cəhri kənd xidmət mərkəzində 2 bərbərxana, 2 qadın gözəllik salonu, dərzi, ət satışı yeri, ərzaq, sənaye və təsərrüfat malları olmaqla, 3 mağaza fəaliyyət göstərəcəkdir. Mərkəzdə 9 nəfər işlə təmin olunmuşdur.

# Cəhri Kənd Sahə Xəstəxanası yenidənqurma işlərindən sonra istifadəyə verilmişdir

Muxtar respublikanın kənd yaşayış məntəqələrində fəaliyyət göstərən sahə xəstəxanalarında yaradılan müasir infrastruktur sakinlərin hərtərəfli tibbi xidmətlə təminatına hesablanmışdır.






Fevralın 19-da Cəhri Kənd Sahə Xəstəxanasının binası yenidənqurmadan sonra istifadəyə verilmişdir.

Həkim Vəliqulu Həsənov muxtar respublikada səhiyyə quruculuğu sahəsində aparılan işlərin Cəhri Kənd Sahə Xəstəxanasını da əhatə etdiyini bildirmiş, yaradılan şəraitə görə kollektiv adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Cəhri Kənd Sahə Xəstəxanasının istifadəyə verilməsi münasibətilə sakinləri və kollektivi təbrik edərək demişdir: "1892-ci ildə əsası qoyulan və 1904-cü ildə 6 çarpayılıq sahə xəstəxanasına çevrilən Cəhri Kənd Sahə Xəstəxanası bu gün tam müasir tələblər səviyyəsində qurulmuş, lazımi tibbi avadanlıqlarla təmin edilmişdir. 20 çarpayılıq xəstəxanada 2 şöbə və 1 bölmə fəaliyyət göstərəcək. Uzun illər səmərəli fəaliyyət göstərən xəstəxana qabaqcıl səhiyyə ocaqlarındandır".

Ali Məclisin Sədri demişdir: "Cəhri Kənd Sahə Xəstəxanasında yaradılan tibbi şərait kollektiv qarşısında mühüm vəzifələr qoymuşdur. Həkimlər xəstəxanada quraşdırılan avadanlıqlardan səmərəli istifadə etməli, xəstələrə düzgün diaqnoz qoyulmalı, onların müalicəsi daim nəzarətdə saxlanılmalıdır. Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi mütəmadi olaraq sahə xəstəxanalarının və həkim ambulatoriyalarının işinə köməklik göstərməli, həkim briqadalarının iştirakı ilə kəndlərdə səhiyyə xidməti göstərilməli, ərazidə ilkin tibbi xidmətin təşkili, eləcə də hamilə qadınların və uşaqların müalicəsi diqqət mərkəzində saxlanılmalıdır. Bu tədbirlərin həyata keçirilməsi sakinlərin yaşadıqları ərazidə lazımi tibbi xidmətlə təmin olunmasına imkan verəcəkdir".

Ali Məclisin Sədri kollektivə işlərində uğurlar arzulamış, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, xəstəxanada stasionar və poliklinika şöbələri, eləcə də doğuş və ginekologiya bölməsi fəaliyyət göstərir. İkimərtəbəli binada palatalar, inzibati hissə, qəbul-qeydiyyat üçün otaqlar, stomatologiya, ultrasəslə müayinə, rentgen, peyvənd kabinələri, laboratoriya, fizioterapiya, bufet, yeməkxana, arxiv, təsərrüfat otaqları və anbar vardır.

Xəstəxana ultrasəslə müayinə, mobil və stomatoloji rentgen aparatları, stomatoloji qurğu, doğuş və cərrahi alət dəstləri, EKQ, hematoloji avtoanalizator və fizioterapiya aparatları ilə təmin edilmişdir.

Bina ilə tanışlıq zamanı Ali Məclisin Sədri tibbi xidmətin səmərəliliyinin artırılması üçün səhiyyə maarifi işinin təşkilinin prioritet istiqamət kimi götürülməsi, gigiyenik qaydalara əməl edilməsi, həkim və tibb işçilərinin təkmilləşdirmə kurslarına göndərilməsi barədə tapşırıqlar vermişdir.

* * *

Cəhri kəndində aparılan tikinti işləri zamanı kənddaxili 2,8 kilometr yola asfalt örtük salınmışdır. Həmçinin kənddə rabitə xidmətinin səviyyəsinin yüksəldilməsi məqsədilə mövcud telefon stansiyası 1024 nömrəlik yeni nəsil avtomat telefon stansiyası ilə əvəz edilmiş, Cəhri və Gülşənabad kəndlərini əhatə edən 256 nömrəlik yeni nəsil avtomat telefon stansiyası quraşdırılmış, 400 metr rabitə xətti çəkilmişdir. Aparılan abadlıq işləri elektrik, qaz və su təsərrüfatını da əhatə etmiş, 850 metr yeni elektrik verilişi xətti çəkilmiş, 550 metr qaz xəttinin yeri dəyişdirilmiş, 2020 metr uzunluğundakı içməli su xəttində isə təmir-bərpa işləri aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



Milli dəyərlərimizi öyrənək və yaşadaq

# Milli toy konsepsiyası və müasirlik

*Milli adət-ənənələrin öyrənilməsi, onların milli dəyərlər sistemində tədqiqi həmişə aktual olmuşdur. Çünki milli adət-ənənələr tarixin bütün mərhələlərini özündə yaşadan mədəni dəyərlər toplusudur. Ulu öndər Heydər Əliyev mədəniyyətimizi yüksək qiymətləndirərək demişdir: “Mədəniyyəti yüksək olan xalq daim irəli gedəcək, daim yüksələcəkdir”.*

Xalqımızın zəngin və qədim tarixi ənənələri ilə öyünməyə haqqı var. Bu tarixi ənənələrimizdən biri də toy mərasimidir. Toy xalqımızın qədim zamanlardan formalaşıb günümüzədək gəlib çatmış məişət mərasimlərindən biridir. Toy adətlərinin tarixi xalqımızın tarixi qədər qədim və uludur. Toylar təkcə əyləncə, şənlənmə mərasimi olmayıb, həm də dərin məna və məzmunu ilə səciyyələnir. XX əsrin ortalarına qədər xalqımızın ənənəvi toyları simvolik ayinlər, oyunlar, rəqslər, zorxanalar və sair ilə müşayiət olunurdu. Bu baxımdan Azərbaycan xalqının keçmişini, mənəvi mədəniyyətini, dünyagörüşünü tədqiq etmək üçün toy mərasimləri ən qiymətli mənbələrdən biridir. Müasir dövrdə isə toy iki nəfərin ailə-məişət mərasimindən daha çox iki nəfərin, onların ailələrinin borca salınması mərasiminə çevrilir.

Son illərdə bu mərasimdə xoşagələn müsbət cəhətlərlə yanaşı, milli mentalitetimizə yad olan ünsürlər də az deyil, hələ əksinə, yetərincədir. Bəzi kəslər səhv düşüncə ilə bu yad ünsürləri avropalaşmaq, yeniləşmək, qloballaşmaq və sair kimi adlandırırlar. Lakin müasirlik adı ilə milliliyimizin müasirliyini qorusaq, öz adət-ənənələrimizi də qorumuş olarıq.

Son zamanlar toylarımızda mentalitetimizə zidd hərəkətlər, adətlər həyata keçirilir ki, adını da müasirlik, qloballaşma qoyurlar. Toylarımızda son dövrlərdə xarici musiqilər eşidilir. Səsləndirilən bu mahnıların, demək olar ki, hamısı fonoqramla səsləndirilir. Oxunan yerli mahnıların bir neçəsini çıxmaq şərtilə qalanları məclisin ahənginə uyğun oxunmur. Akustik normalara riayət olunmaması ucbatından da müasir toylarda musiqi mənəvi zövqü oxşamaq əvəzinə başağrısına çevrilir. Öz musiqilərimiz səsləndirilmədiyi və yaxud milli rəqslərimiz ifa edilmədiyi üçün yadlaşır. Saz, zurna, balaban unudulub, muğama isə yer verilmir, bəzi hallarda yaşlı nəslin istəyini nəzərə alıb yer verilsə də, bu, cavanların narazılığına səbəb olur.

Qədim adət-ənənələrimizə görə, gəlin ər evinə “Vağzalı” musiqisi sədaları altında yola salınırdı. İndi isə şadlıq evlərində (bəzilərini çıxmaq şərti ilə) “Vağzalı” yerinə nə musiqi çalındığı bilinmir.

Toyla bağlı keçirilən mərasimlərdən biri də “xınayaxdı” mərasimidir. “Xınayaxdı” mərasiminin yaşı uzaq keçmişə gedib çıxır. Xınanı oğlan evi qız evinə toy zamanı aparırdı. Burda isə qarşılıqlı olaraq bir neçə haxıştalar deyilər, sonra oğlan adamları gəlinin əlinə xına yaxıb geri dönərdilər. Ümumiyyətlə, xına şadlıq, mübarəkbadlıq rəmzidir. İndi belə sadə mərasimin yerini ağıllı-başlı qız toyları tutur. Müasir “xınayaxdı” mərasimində gəlinlərin əli və biləyinə xına ilə bəzəklər çəkilir. Bu bəzəklər isə “tatu” (tatirovka) adlanır ki, bizim milli mentalitetə tamamilə yaddır.

İndi isə müasir toylarımızda mövcud olan bəzi adətlərə nəzər salaq. Məsələn, bəzi toylarda iki gənc (bəylə gəlin) şərabın içərisinə üzüklərini salıb içirlər. Bu, bizim həm mədəniyyətimizə, həm də dinimizə ziddir. Qloballaşma gedir, başa düşürük. Ancaq burdan bir sual ortaya çıxır: görəsən, avropalılar bizim toyla bağlı adət-ənənələrimizi (gəlinin belini qırmızı lentlə bağlamaq, gəlinin başına bolluq-bərəkət rəmzi olaraq düyü, buğda tökmək, gəlinin ər evinə daxil olarkən bəyin gəlinin başına doğranmış alma atması, gəlin içəri daxil olanda ayağı altına şər qüvvələrdən qorunmaq üçün əvvəllər şiş, indi isə qab qoymaq, gəlinin qabağında qurban kəsmək və sair kimi yüzlərlə adətlərimizi saymaq olar) niyə qəbul etmirlər? Niyə biz kimlərisə özümüz üçün hakim seçməliyik?

Milli-mənəvi dəyərlərimizə zidd olan başqa bir məsələyə toxunmaq istərdik. Bu gün toylarımızda gəlinlik paltarlarının da milliliyimizə uyğun olmadığını müşahidə edə bilirik. Belə gəlinləri görəndə istər-istəməz bir sual ağıldan keçir ki, qayınatasının qabağında bu vəziyyətdə oturan gəlin sabah onun əlindən öpüb ona xidmət edəcəkmi? Tarixən gəlinlərimiz abır, ismət rəmzi olaraq üzlərinə qırmızı rəngli duvaq salıblar. Adət-ənənələrimizə görə, toy günü gəlinin üzü görsənməməlidir. Onun üzünü ancaq bəy görə bilərdi. İndi isə bunlar tamamilə unudulmaqdadır. Duvaqdan və duvaqqapma mərasimindən isə əsər-əlamət qalmayıb. Təəssüflə qeyd etmək istəyirəm ki, toy günü qırmızı gəlinlik paltarı geyinmək adəti hazırda sıradan çıxıb, toy geyimlərimiz tamamilə Avropa geyimləri ilə əvəz olunub.

Toy adətlərimizin içərisinə daxil olan yad ünsürlərdən biri də gəlinlə bəyin şadlıq evlərini tərk edərkən gəlinin gülü (bəyin gəlinə verdiyi gülü) başının üstündən atmasıdır. İnsanlar, xüsusən gənclər arasında olan “inama” görə, bu gülü tutan şəxs (oğlan və ya qız) guya həmin il ailə quracaqdır.

Bu gün toylarımızda verilən yeməklər haqqında da bir neçə söz demək istərdik. İlk növbədə, toyda verilən yeməklər haqqında ölçü götürülməlidir. Müasir toylarımızda 5-10 cür salat hazırlanır. Çeşid-çeşid yeməklər bişirilir. Bunun müqabilində isə milli toy yeməklərimizin bir neçəsi sıradan çıxıb. Həm də verilən yeməklərin yarıdan çoxu istifadə olunmur, qalıb zay olur. İsrafçılığa yol verilir ki, bunu dinimiz qətiyyən qəbul etmir. Bəzi kəslər isə bununla fəxr edirlər ki, filankəs oğluna toy eyləyəndə stolun üstündə yeməklər tökülüb qalmışdı. Ata-babalarımız keçmişdə üç gün, üç gecə toy edərdilər, amma heç bu qədər israfçılığa yol verməzdilər. İmkansız ailələr də “qonşudan qalma geri” prinsipini əsas tutaraq borc götürüb dəbdəbəli toy edirlər. Sonra da illərlə o borcun altından çıxa bilmirlər.

***Bu yazını yazarkən saytların birində oxudum ki, AŞPA-nın ölkəmiz üzrə keçmiş həmməruzəçilərindən birindən Azərbaycanda nəyə heyrətləndiyini soruşduqda o, toylarımızı göstərib. Azərbaycan toylarında onu heyrətləndirən isə məhz toy mərasimindəki bəzi insanların topa şəklində meydana girib əcaib rəqslər etməsi və bu prosesin 6-7 saat ərzində dəfələrlə təkrarlanması olub. Gəlin belə avropalıları toyla bağlı milli-mənəvi dəyərlərimizdən olan qızbəyənmədən, elçilikdən, şirinçaydan, toylarımızdakı milli rəqslərdən tutmuş duvaqqapmadan ayaqaçdıya qədər adətlərimizlə yaxşı mənada təəccübləndirək. Axı bu adətlərimizin hər biri milli dəyərimizdir.***

**Asəf ORUCOV**
*AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru*

## Aztəminatlı ailələrlə keçirilən görüşlər davam etdirilir

Muxtar respublikada əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması məqsədilə həyata keçirilən tədbirlər aztəminatlı ailələri də əhatə etmişdir. Bu qrupdan olan ailələrin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə ünvanlı sosial yardımların təyin olunması, əmək qabiliyyətli ailə üzvlərinin məşğulluq problemlərinin həlli, əlil və ahılların təqaüdlərinin vaxtlı-vaxtında verilməsi, aztəminatlı ailələrə mütəmadi olaraq baş çəkilməsi bu istiqamətdə görülən işlərdəndir.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən aldığımız məlumata görə, növbəti belə görüş Babək rayonunun Naxışnərgiz kəndində yaşayan aztəminatlı Qəmbər Zamanovun ailəsi ilə keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi və Səhiyyə nazirliklərinin əməkdaşları ailənin yaşayış vəziyyəti ilə maraqlanmış, ailə üzvlərini tibbi müayinədən keçirərək ailəyə məişət əşyası və ərzaq payı vermişlər.

Xüsusi qayğıya ehtiyacı olan ailənin üzvləri diqqət və qayğıya görə minnətdarlıqlarını bildirmişlər.

## Şeir müsabiqəsi keçirilib

***Şahbuz Rayon Təhsil Şöbəsinin təşkilatçılığı ilə Şahbuz şəhər 1 nömrəli tam orta məktəbdə 21 fevral – Beynəlxalq Ana Dili Günü münasibətilə rayonun ümumtəhsil məktəblərinin şagirdləri arasında “Dilim zəngin xəzinəmdir” mövzusunda şeir müsabiqəsi keçirilib.***

Tədbiri giriş sözü ilə şöbənin əməkdaşı Kamran Quliyev açaraq ana dilimizin inkişaf tarixindən və zənginliyindən danışaraq keçirilən şeir müsabiqəsinin dilimizin zənginliyinin gələcək nəslə təlqin olunması məqsədi daşıdığını vurğulayıb.

Müsabiqə iştirakçıları ana dilinə həsr olunmuş şeirlər söyləyiblər. Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Sevinc Oruclu birinci, Yuxarı Qışlaq kənd tam orta məktəbinin şagirdi Səlbinaz İbrahimli isə ikinci yerə layiq görülərək müsabiqənin qalibi olublar.

**Xəbərlər şöbəsi**

## Fermerlərin və torpaq mülkiyyətçilərinin nəzərinə!

“Naxçıvan Aqrolizinq” ASC fermer və torpaq mülkiyyətçilərinə kənd təsərrüfatı bitkilərinin əkilib-becərilməsində və biçilməsində aşağıdakı aqroservis xidmətlərini təklif edir.

| S/№ | İşin adı | Həcmi | Müqavilə qiyməti (AZN) |
|---|---|---|---|
| 1. | Şum | 1 hektar | 35 |
| 2. | Tapan (malalama) 1 üz | 1 hektar | 13 |
| 3. | Moraaçma | 1 hektar | 9 |
| 4. | Taxıl səpini | 1 hektar | 15 |
| 5. | Taxıl səpini şırımaçanla | 1 hektar | 25 |
| 6. | Ot və yonca biçini | 1 hektar | 23 |
| 7. | Taxıl biçini | 1 hektar | 33 |
| 8. | Qarğıdalı biçini | 1 hektar | 40 |
| 9. | Gübrə səpmək | 1 hektar | 13 |
| 10. | Kimyəvi mübarizə tədbiri | 1 hektar | 13 |
| 11. | Ot və küləşə kip vurulması | 1000 ədəd | 210 |
| 12. | Məhsulun daşınması (10 km məsafəyədək) | 1 reys | 11 |
| 13. | Məhsulun daşınması (15 km məsafəyədək) | 1 reys | 20 |
| 14. | Dırmıqlama | 1 hektar | 14 |
| 15. | Çizel | 1 hektar | 16 |
| 16. | Kartofun əkilməsi | 1 hektar | 45 |
| 17. | Kartofun birinci dib doldurması | 1 hektar | 45 |
| 18. | Kartofun ikinci dib doldurması | 1 hektar | 45 |
| 19. | Kartofun çıxarılması | 1 hektar | 45 |
| 20. | Kəsək əzmək | 1 hektar | 35 |

**Əlaqə telefonları:**
*Şərur bazası:* 542-36-94, 050-644-54-60
*Babək bazası:* 050-328-81-30, 050-572-57-94, 050-520-35-70
*Ordubad bazası:* 070-340-83-17
*Culfa bazası:* 060-554-16-25, 050-537-90-34
*Kəngərli bazası:* 050-434-48-43
*Şahbuz bazası:* 050, 070-385-56-62
*Sədərək bazası:* 050-567-12-82

## “Oxu, qavra” adlı mütaliə yarışı

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”ndan irəli gələn vəzifələrin icrası üzrə hazırlanmış tədbirlər planına uyğun olaraq, sağlamlıq imkanları məhdud uşaqların istedadlarının aşkara çıxarılması istiqamətində növbəti tədbir təşkil olunub.***

Belə ki, fevralın 19-da Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində sağlamlıq imkanları məhdud 12 uşağın iştirakı ilə “Oxu, qavra” adlı mütaliə yarışı keçirilib.

Yarış iştirakçıları bir saat ərzində elektron kitabxananın kataloqunda olan bədii ədəbiyyatdan seçilmiş hekayəni oxumaqla onun məzmununa aid tərtib olunan test suallarını cavablandırıblar. Ən çox sualı düzgün cavablandıran iştirakçı yarışın qalibi olub.

Yarışda ilk üç yeri tutan sağlamlıq imkanları məhdud uşaqlara hədiyyələr, digər yarış iştirakçılarına isə həvəsləndirici mükafatlar təqdim edilib.

Bu tədbir eyni zamanda sağlamlıq imkanları məhdud uşaqlarda mütaliə vərdişi yaratmaqla onların zehni inkişafının və biliklərinin artmasına xidmət edir.


## Şərur Rayon Təhsil Şöbəsi

*2014-cü il üçün kotirovka elan edir*

*1. Ərzaq məhsullarının satın alınması*
*2. Dəftərxana ləvazimatlarının satın alınması*

Kotirovka 24 fevral 2014-cü il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki, iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 25 fevral 2014-cü il tarixdə saat $12^{00}$-də Şərur Rayon Təhsil Şöbəsində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Əlaqələndirici şəxs: Arzu Fərzəliyeva, telefon: 542-21-62***


## Allah rəhmət eləsin

AMEA Naxçıvan Bölməsinin kollektivi Naxçıvan Dövlət Universitetinin rektoru Saleh Məhərrəmova, əzizi
**HÜSEYNALININ**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun direktoru Tariyel Talıbov və institutun əməkdaşları iş yoldaşları Aydın Qənbərliyə, qardaşı
**VASİF QƏNBƏRLİNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəzinin kollektivi iş yoldaşları Fərrux Bayramova, əzizi
**RƏHMANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsinin professor-müəllim kollektivi Saleh Məhərrəmova, əzizi
**HÜSEYNALININ**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Kimya kafedrasının müdiri Tofiq Əliyev və kafedranın əməkdaşları Saleh Məhərrəmova, əzizi
**HÜSEYNALININ**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Elnur Kəlbizadə**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 189**